# Rövşən Xasayoğlunun "Qış" şeiri



**Səxavət Sahil**

80-ci illərin sonunda ədəbiyyata gələn yazarlar dağılmaqda olan Sovetlər İttifaqında baş verən ictimai-siyasi proseslərin fonunda ədəbi fəaliyyətdən uzaq düşdülər, iqtisadi və sosial durumlarını təmin etmək üçün ədəbiyyatdan kənar işlərdə çalışmalı oldular. Zəifləyən nəşriyyat sistemi yazarların çap olunmaq imkanlarını çətinləşdirdi, onların ədəbi mühitə inteqrasiya olmasına əngəl yaratdı. Lakin yazarlar çap olunmasalar da, yazıb-yaradırdılar. Bu hal isə onların ədəbi tənqidçilərin gözündən yayınmasına gətirib çıxarırdı.

Digər tərəfdən 80-ci illər ədəbi nəsli özündən əvvəlki nəsillərdən fərqli olaraq ideoloji təfəkkürdən çıxmağa, ədəbiyyatın yükünü kommunist partiyasının düşüncə buxovundan xilas etməyə başlamışdı. Tənqidçi Elnarə Akimova həmin dövrü bu cür xarakterizə edir: "İlk növbədə, bu mərhələ bədii-estetik tendensiyaların, orijinal yanaşma tərzinin mövcudluğuna, yaşarlılığına təminat verirdi. Və nə qədər müxtəlif baxış, fərqli üslub və düşüncə tərzi nümayiş etdirsə belə, son olaraq ədəbiyyatın maraqları baxımından onun dinamik inkişafına xidmətin göstəricisi kimi meydana çıxırdı. Bütün bunlar yeni təfəkkürün təşəkkülü baxımından 80-ci illəri "dönüş mərhələsi" kimi səciyyələndirməyə imkan verirdi".

80-ci illərin ortalarında ədəbi yaradıcılığa başlayan şair Rövşən Xasayoğlu hazırda qardaş Türkiyədə elmi və pedaqoji fəaliyyətlə məşğuldur. Onun şeirləri sadə, aydın və ürəyəyatımlı olmasıyla fərqlənir. Şeir hər şeydən əvvəl hiss və düşüncənin ifadəsi, ürəkdə yaşanan duyğuların tərrənümü, insanın daxili aləmi ilə xarici aləm arasında yaranan münasibətlərin təzahürüdür. Bu baxımdan hər bir şair, hər bir şeir özünəməxsusdur. Çünki o, həm də bir şəxsə aid duyğuların, hisslərin ifadəsidir. Bu yazıda araşdırdığımız Rövşən Xasayoğlunun "Qış" şeiri də, müəllifin insana, təbətə və zamana fərqli baxışının nəticəsidir. Şeir 1983-cü ilin qışında Neftçalada yazılıb. O zaman 25 yaşı olan gənc şair qarın yaratdığı mənzərəni özünəməxsus şəkildə qələmə alıb və təbiətin canlı tablosunu müxtəlif obrazlarla birləşdirərək açıq və gizli simvollarla oxucuya çatdırıb.

Azərbaycan ədəbiyyat tarixindən bilirik ki, qış və ilk qar haqqında kifayət qədər şeirlər yazılıb. Abdulla Şaiq, Hikmət Ziya, Mirvarid Dilbazi, Zeynal Xəlil, Mirmehdi Seyidzadə, Tofiq Mütəllibov, Əhməd Cəmil, Məmməd Rahim, Ənvər Rza və digər söz ustalarının bu mövzuda şeirləri var.

Rövşən Xasayoğlunun "Qış" şeiri klassik üslubda, məsnəvi formasında 11 heca sistemi ilə yazılıb və iyirmi misradan ibarətdir. Şeirdə epik təsvirlərlə yanaşı, lirik ifadələr də yer alıb. Bu da, şeirin mürəkkəbliyini artırır, oxucuya nəql olunan təsviri gücləndirir, oxucunu duyğulandırır.

Şeirin ilk bəndi belədir:

***Ağ libas geydirib torpağa ilk qar,***
***Qış öz varlığını etdi aşikar.***

İlk qar payızın saralmış yarpaqlarını örtür, fəslin dəyişdiyini xəbər verir. "Qış öz varlığını etdi aşikar" misrası qışın gəlişinin, yəni torpağın bəyaza bürünməsinin və ilk qarın rəmzini göstərir. İnsanlarda ilk qar yağana qədər payız ab-havası olur. Lakin ilk qardan sonra hər kəs qışın gəlişinə inanır. Şair də buna işarə edir.

***Bəlkə yağan qarda gizli hikmət var,***
***Varsa, açaq onu, qalmayaq naçar.***

İkinci bənddən başlayaraq şeir dərinləşir, daşıdığı məna yükü artır və özündə bir neçə fikir qatını birləşdirir. Şair ikinci bəndin birinci misrasının əvvəlində "bəlkə" sözü işlətməklə misradakı ifadə olunan fikrə tərəddüd qatır və bununla da məntiq və yozum vasitəsi ilə gizlədilən məna üzə çıxır. İkinci sətirdə də şair yenə, qeyri-müəyyən düşüncə yaradır, misranın əvvəlinə "varsa" sözü əlavə edir. "... Açaq onu, qalmayaq naçar" sözlərində isə şair özü də oxucuya qoşularaq ilk qarın yağmasında bir hikmətin olmasına ehtimal edir, və yaranan ehtimala görə naçar qalan oxucu və ya seyricini növbəti bəndlərdə bu çarəsizlikdən qurtarmağa çalışır.

***Doğula hər uşaq böyüsün deyə,***
***Ana südün verər dilsiz körpəyə.***

Burada şair əvvəlki misrada yaratdığı qeyri-müəyyənliyə və çoxmənalılığa aydınlıq gətirir və ilk qarı körpəyə verilən südlə müqayisə edir. Xalq arasında belə bir deyim var ki, qışda qar çox yağanda həmin il torpaq daha çox məhsul verir və burda da o deyimə işarə edilir. Uşağın südlə qidalanması obrazına uyğun gəlməsi misraların gücünü artırır.



Uşaq isə ana südü ilə qidalanarsa onun böyüyəndə sağlam olmasına zəmin yarardır. Göründüyü kimi, bu bənddə məna içində məna, obraz içində obraz var.

***Qışda da ilimiz təzə doğulur.***
***Doğulan körpənin südü qar olur.***

Şeirin bu bəndin ilə əvvəlki bənd arasında bağlantı qurulur. Bu həm şeirin bütövlüyü baxımından əhəmiyyətlidir. Buradakı "...ilimiz təzə doğulur" ifadəsinə fikir verək. Aydın olur şair burada rəmzi formada bənzətmələr aparıb. Qış fəslində il dəyişir, sanki yeni il doğulur. Və bu yeni doğulan ilə məcazi mənada süd gərəkdir. Bu süd isə yağan ilk qardır. Sətirlərdən göründüyü kimi şair körpə qar, qış və yeni il ifadələrini məharətlə bir birinə bağlayır və simvollaşdırır.

***Uşaq yaşlarında öyrənsən elmi,***
***Büdrəməz ayağın, bükülməz belin.***

Yuxarıdakı misraların hərfi mənasından çox sətiraltı mənası daha çox yükə malikdir. İnsanın kiçik yaşlarında qazandığı savad və bilik onun gələcəkdə kamil bir şəxs olmasına təminat verir. Şair də burada təkrarən torpağın qidalanması amilinə qayıdaraq həmin obrazı yenidən simvollaşdır. Həmin bəndin hərfi mənası isə oxuculara oxunuşdan məlumdur.

***Necə ki, torpağa qışda yağan qar,***
***Yazda bol məhsula zəmin yaradar.***

Şair burada təkrar ifadələr işlədir, lakin indi bu sətirlər qapalı yox, açıq məna daşıyır, qar yağmasının bərəkətli olması bir daha vurğulanır. Bu misra ilk baxışdan təkrar görünsə də, şairin real aləmə qayıtması, ifadələrinin çoxmənalılıqdan birmənalıya qayıtmasıdır. Şeirin misraları bir və bir neçə mənaya keçməsi, dəyişkənliyin simvoludur. Çünki, qarın yağması da təbiətin dəyişməsi ilə yanaşı ətraf aləm dəyişir, insanların gündəlik həyat tərzi, qayğıları dəyişir.

***Belə bir adət var gəlin köçəndə,***
***Üzün bağlayarlar duvaq içində.***

Bu misralarda şair əsasən sətiraltı vasitədən istifadə edərək öz fikrini çatdırır. Bu misrlar da yuxardakı misralar kimi qarın bəyazlığı ilə bağlıdır. Şair xalq arasında olan adətə nəzər salır, gəlin köçərkən üzünə çəkilən ağ örtükdən - duvaqdan söhbət açır. Yeni həyata qədəm qoyan, başqa bir evə köçən, müstəqil həyata başlayan qadının duvaq bağlaması yuxarıdakı misralarda simvol kimi istifadə edilib. Şair bunu ilk qara bənzədir, yeni dövrün, yeni həyatın başlamasını özünəməxsus şəkildə bildirir. Gəlin köçən qızın üzünə duvaq bağlamaq təkcə adət deyil, təmizliyin, paklığın rəmzidir. Gəlinin üzü bağlanır ki, toy günündə onun üzü bəd nəzərlərdən uzaq olsun, ər evinə saf və təmiz gedə bilsin.

***Əzəldən Göy Yeri nişanlı bilər,***
***Qardan yer üzünə ağ duvaq sərər.***

Şeirin bəndləri bir birinə sıx bağlıdır. Bu bağlılıq həm məna, həm də sözlər arasındadır və şeiri vahidlik prinsipini qoruyub saxlayır. Şeirin yuxarıdakı bəndində şair hətta qədim türk dastanlarına göndərmə edir, Göy Tanrı ilə Yer Tanrının nişanlı olmasını xatırladır. Bu xatırlatma şeirin gücünü artırır, onu mifik bağlantı ilə zənginləşdirir. Müəllif yuxarıdakı duvaq obrazına qayıdır, Göyün öz nişanlısı Yerin üzünə qardan duvaq çəkdiyini yazır. Müəllif öz şeirində qarın daha bir obrazını duvaq formasında yaradır. Şeirdə əsas mənanı ifadə edən obrazla yanaşı, ona uyğun digər obrazların yaradılması və bənzədilməsi şeirdə "sütunlaşma" adlanır. Bu daha çox portret tipli, yəni təsvir və tablo şeirlərində istifadə edilir.

***İnsan yaşa dolub qocalan zaman,***
***Başına zirvətək çökər duman, qar.***

Müəllif qar obrazına məna və bənzətmə axtarışlarını davam etdirir. Bu misralarda da şair insanın qocalarkən saçlarının ağarmasını yada salır, bu zaman onun kamilləşməsinə, müdrikləşməsinə işarə edir. Və ağaran saçları uca zirvələrin daimi başında olan dumanla, qarla müqayisə edir. Şeir əslində qara həsr olunsa da, bu bənddəki qar bir başa mənada deyil, insanın ağaran saçların bənzədir. Bununla da şair əsas obrazı bənzətdiyi köməkçi obrazdan, daha bir obraza keçir və dairəvi bənzətmə sistemi alınır ki, bu da poetik məna baxımından ciddi əhəmiyyət malikdir.

***Qışda qar hər yeri ağartdığından***
***Qışı bir qocalıq sanar ulular.***

Şeirin son iki bəndi bir birinə çarpaz qafiyədir. Bu hissədə şairin düşüncələri yekunlaşır və obrazlar sistemi bitkinləşərək sona çatır. Sonluğu isə müəllif qış fəslini, ulular deyərək vurğuladığı müdriklərin qocalığa bənzətməsini yada salır, öz şeirini müdriklərin ifadəsi ilə sona çatdırır. Bu sonluq da, əslində, özü bir obrazdır.

Rövşən Xasayoğlunun "Qış" şeirini yuxarıda apardığımız araşdırmadan sonra aydın olur ki, şair silsilə obrazlar və çoxmənalı ifadələr sistemi yaratmaqla fərqli tərzdə qış mənzərəsi yarada bilib. Burada əsas məqsəd təsvir edilən mənzərə ilə yanaşı, müəllifin özü düşüncəsini də əlavə edərək poetik görüntü yaratmaqdır.